

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 147 (21.048)

*6 avqust 2014-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. İran İslam Respublikasına rəsmi səfərini və İran rəhbərləri ilə görüşlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərin ikitərəfli əlaqələrimizin genişləndirilməsinə yeni təkan verdiyini qeyd etdi. Ölkələrimiz arasında əməkdaşlığın siyasi, iqtisadi, mədəni və digər sahələrdə yaxşı səviyyədə olduğunu deyən dövlət başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının növbəti iclasında müzakirə olunacaq məsələlərin bu əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin ölkəmizə səfərinin də uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.

Nazir Mahmud Vaezi Prezident Həsən Ruhaninin Azərbaycanın dövlət başçısı ilə Davosda və Tehranda keçirdiyi görüşləri məmnunluqla xatırladığını dedi. Mahmud Vaezi ötən səfərləri zamanı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərini böyük ehtiramla xatırladı. Bakıda inanılmaz inkişafın şahidi olduğunu və ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğulayan Mahmud Vaezi dedi: “Mən Azərbaycanın əldə etdiyi böyük uğurlara görə Sizə təbriklərimi çatdırıram. Mən, eyni zamanda Azərbaycan xalqını təbrik etmək istəyirəm ki, ölkəsi üçün belə böyük işlər görən müdrik və uzaqgörən rəhbəri var”.

Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən energetika, nəqliyyat, neft daşımaları, gəmiqayırma, ticarət, bank sektoru, elm, idman və digər sahələrdə inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## V.Z.Vəliyevə “Əməkdar dövlət qulluqçusu” fəxri adının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Valeh Zöhrab oğlu Vəliyevə **“Əməkdar dövlət qulluqçusu”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 avqust 2014-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir





Avqustun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov, “Naxçıvanqaz” İstehsalat Birliyinin direktoru Ramin İsmayılov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov və Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev payız-qış mövsümünə hazırlıqla əlaqədar çıxış etmişlər.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov, Əlahiddə Ümumqoşun Ordusunun komandanı Kərəm Mustafayev, Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri Şamı Abdullayev, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Suliddin Əliyev, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov, “Naxçıvan” Sərhəd Diviziyasının komandiri Asəf Quliyev, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov və Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli aidiyyəti sahələr üzrə payız-qış mövsümünə hazırlığın vəziyyəti və görülən işlər barədə məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: “Muxtar respublikada payız-qış mövsümünə hazırlıq daim diqqət mərkəzində saxlanılır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublika fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunur. Enerji təminatı sahəsində görülən işlərin davamı olaraq, cari ildə Şərur rayonunda 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları istifadəyə verilmişdir. Haliyədə 36 meqavat gücündə “Ordubad” Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Bundan başqa, alternativ enerji mənbələrindən istifadə olunması istiqamətində də işlər görülür. Qaz təchizatında da ardıcıl tədbirlər görülmüş, itkini minimuma endirmək məqsədilə Naxçıvan-Şahbuz ortatəzyiqli və Naxçıvan-Sədərək yüksəktəzyiqli yeni magistral qaz kəmərləri istifadəyə verilmiş, Naxçıvan-Culfa qaz kəmərində bərpa işləri aparılmışdır”.

Qeyd olunmuşdur ki, muxtar respublikada yay mövsümündə elektrik enerjisinə olan gündəlik tələbat 80-85 meqavat, təbii qaza olan tələbat 700 min kubmetrdir. Qış mövsümündə isə elektrik enerjisi tələbatı 45-50 meqavat, təbii qaz tələbatı 1 milyon 700 min kubmetr təşkil edir. Əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinə indidən xüsusi diqqət yetirilməli, lazımi mal-material ehtiyatı yaradılmalıdır.

Ali Məclisin Sədri müşavirədə aidiyyəti təşkilatlara konkret tapşırıqlar verərək demişdir: “Dövlət Energetika Agentliyi qış aylarında abonentlərin və təsərrüfat subyektlərinin elektrik enerjisi ilə fasiləsiz təchizatı üçün istismar müddəti ötmüş elektrik avadanlıq və xətlərin yenilənməsini diqqət mərkəzində saxlamalıdır. Elektrik enerjisinin keyfiyyətlə ötürülməsi və qəza hallarının qarşısının alınması üçün Naxçıvan şəhərində yerüstü elektrik xətlərinin yeraltı kabellərlə əvəz olunması davam etdirilməli, qış mövsümünə hazırlıqla əlaqədar mövcud transformator və yarımstansiyaların texniki baxışdan keçirilməsi təmin edilməli, elektrik enerjisindən istifadə zamanı yaranan texniki itkinin minimum həddə saxlanması üçün tədbirlər görülməlidir”.

Dövlət Energetika Agentliyinə həmçinin tapşırılmışdır ki, elektrik enerjisindən qanunsuz istifadənin qarşısını almaq məqsədilə aidiyyəti orqanlarla birlikdə reydlərin keçirilməsini davam etdirsin, baş verə biləcək qəza hallarının nəticələrinin operativ şəkildə aradan qaldırılması üçün tələb olunan mal-materialın, avadanlıqların alınıb muxtar respublikaya gətirilməsini və zəruri ehtiyatının yaradılmasını təmin etsin, işçilərin qış mövsümünə uyğun xüsusi geyimlə təminatı üçün tədbirlər görsün, qəza-bərpa briqadalarının komplektləşdirilməsi və onların təlimatlandırılması işini mövsüm başlananadək başa çatdırsın.

Müşavirədə təbii qaz yanacağı ilə təminatla əlaqədar vəzifələrdən danışan Ali Məclisin Sədri “Naxçıvanqaz” İstehsalat Birliyinə tapşırmışdır ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar qısa müddətdə qaz təchizatı sisteminə texniki baxışı həyata keçirsin, mövcud nasazlıqları vaxtında aşkar edərək aradan qaldırsın. İstifadə müddəti bitmiş qaz sayğaclarının dəyişdirilməsini sürətləndirsin, sayğacdankənar istifadənin qarşısının alınması üçün görülən işlərin səmərəliliyini artırsın. Təbii qaz nəqlinin qış mövsümünə uyğun texnoloji rejimlə həyata keçirilməsi üçün qaztənzimləyici qurğuların tənzimlənməsini təmin etsin. Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasını diqqət mərkəzində saxlasın, işçilərin qış mövsümünə uyğun xüsusi geyim və avadanlıqlarla təmin olunması üçün tədbirlər görsün. Qəza hallarının aradan qaldırılmasında operativlik təmin edilsin, yeni qaz xətləri çəkilərkən və bərpa olunarkən mövcud standartların tələblərinin gözlənilməsinə diqqət artırılsın. Yaradılmış mal və material ehtiyatlarından səmərəli istifadə olunsun, işlənən materialların yerinə yenilərinin alınıb gətirilməsi və sabit ehtiyatın yaradılması diqqət mərkəzində saxlanılsın. Yeni qaz xətlərinin təhlükəsiz yerlərdən çəkilməsi təmin edilsin, quraşdırılan sayğacların istismar müddəti nəzarətdə saxlanılaraq aidiyyəti orqanlarla birlikdə qaz sayğaclarının təmiri sexi yaradılsın.

Tikintisi və ya əsaslı təmiri aparılan qazanxanaların qış mövsümünədək istifadəyə verilməsinin təmin edilməsi, bütün qazanxanaların fasiləsiz fəaliyyət göstərmələri üçün elektrik enerjisi, təbii qaz və su təchizatı məsələlərinin araşdırılıb, nöqsanların qısa müddətdə aradan qaldırılması şəhər və rayon icra hakimiyyətlərinə tapşırılmışdır.

*Ardı 2-ci səhifədə*

Qeyd olunmuşdur ki, ictimai yaşayış binalarının zirzəmilərindən keçən istilik və su xətlərinin istismara yararlılığı araşdırılmalı, zəruri təmir işləri qısa müddətdə başa çatdırılmalı, bununla yanaşı, binaların dam örtüklərinin, giriş qapılarının və pəncərə şüşələrinin təmiri üçün müvafiq tədbirlər görülməlidir. Mənzil fondunda, kommunal infrastruktur obyektləri və şəbəkələrində baş verə biləcək qəza hallarının aradan qaldırılması üçün zəruri ehtiyatların yaradılması təmin edilməlidir. Noyabr ayının sonunadək Naxçıvan şəhərində yeni su və kanalizasiya sistemləri istismara verilməli, istifadəçilərlə müqavilələr bağlanmalıdır.

Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi payız-qış mövsümündə ixtisaslaşdırılmış nəqliyyat vasitələrini cəlb etməklə muxtar respublikaya müntəzəm olaraq yanacaq daşınmasını və zəruri ehtiyatların yaradılmasını təmin etməlidir. Muxtar respublikada aparılan tədbirlər nəticəsində əksər təhsil, səhiyyə, idman və mədəniyyət obyektləri istilik sistemi ilə təchiz olunub, lakin hələlik bəzi müəssisə və təşkilatların qızdırılmasında maye qaz və neft məhsullarından da istifadə olunur. Odur ki, Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi bu müəssisələrin qış mövsümündə normal fəaliyyətini təmin etmək məqsədilə lazımi səviyyədə maye qaz və neft məhsullarının tədarükünü və satışını davam etdirməlidir.

Müşavirədə digər sahələrlə bağlı tapşırıqlar da müəyyənləşdirilmişdir. Maliyyə Nazirliyi təhsil, səhiyyə və mədəniyyət müəssisələrinə veriləcək yanacaq və qışa hazırlıqla bağlı tələb olunan digər avadanlıqların alınması üçün vəsaitin köçürülməsini təmin etməlidir. Nəqliyyat Nazirliyi ayrılmış marşrut avtobus və mikroavtobusların qrafikə uyğun hərəkətini və nəqliyyat vasitələrinin texniki sazlığını diqqətdə saxlamalıdır. Marşrut və digər nəqliyyat vasitələrinin qarlı günlərdə rahat hərəkət etmələri üçün şəhər və rayon icra hakimiyyəti orqanları tərəfindən mövcud texnikalar saz vəziyyətə gətirilməli, yollar vaxtında təmizlənməlidir. Avtomobil Yolları Dövlət Şirkəti tabeliyində olan maşın və mexanizmlər üçün ehtiyat hissələrinin yaradılmasını təmin etməli və qum tədarükünü diqqətdə saxlamalıdır. Naxçıvan Beynəlxalq Hava Limanı uçuşların təhlükəsizliyi üçün davamlı olaraq bütün elektrik-işıq sisteminin, rabitə qurğularının, maşın-mexanizmlərin texniki baxışını həyata keçirməlidir. Tələbata görə yanacaq və mal-material ehtiyatı yaradılmalıdır. “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti dəmir yolu nəqliyyatında qış aylarında hərəkətin təhlükəsizliyini təmin etməli, vaqonlara və lokomotivlərə texniki baxış keçirməli, yol təsərrüfatının saxlanmasına, material ehtiyatının yaradılmasına diqqəti artırmalıdır.

Daxili İşlər, Fövqəladə Hallar, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri qazanxanalarda işləyən mövsümi işçilərin təlimatlandırılması üçün müvafiq tədbirlər görməlidirlər. Payız-qış mövsümündə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin fasiləsiz fəaliyyəti aid nazirliklər və yerli icra hakimiyyətləri tərəfindən təmin olunmalıdır. Səhiyyə Nazirliyi şəhər və rayon mərkəzlərində, o cümlədən qəsəbə və kəndlərdə əhaliyə keyfiyyətli tibbi xidmət göstərilməsi üçün səhiyyə müəssisələrinin yanacaq və dərman preparatları ilə təminatını daha da gücləndirməlidir.

Qeyd olunmuşdur ki, hazırda muxtar respublikada ümumi tutumu 12 min 150 ton olan 19 soyuducu anbar fəaliyyət göstərir. İqtisadiyyat və Sənaye Nazirliyi qış aylarında da əhali tələbatının keyfiyyətli məhsullar hesabına ödənilməsi üçün mövsüm ərzində istehsal olunmuş tələbatdan artıq yerli kənd təsərrüfatı məhsullarının soyuducu anbarlar tərəfindən alınmasını davam etdirməli və məhsulların spesifik xüsusiyyətləri nəzərə alınmaqla anbar şəraitində saxlanılması üçün tədbirlər görməlidir. Bununla yanaşı, mövcud istixanalardan səmərəli istifadəyə nəzarət artırılmalı, yeni istixanaların yaradılması istiqamətində tədbirlər davam etdirilməlidir. Kənd Təsərrüfatı Nazirliyi Dövlət Baytarlıq Xidməti ilə birlikdə bağçılıq, tərəvəzçilik, heyvandarlıq, quşçuluq, arıçılıq təsərrüfatlarının qışlamaya hazırlanması məqsədilə müvafiq dərman ehtiyatlarının, yem bazasının yaradılmasına, aqrotexniki və xəstəliklərə qarşı profilaktik mübarizə tədbirlərinin vaxtında yerinə yetirilməsinə diqqəti artırmalıdır.

Ali Məclisin Sədri demişdir: “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar evinin təminatını diqqət mərkəzində saxlamalı, qazanxana təsərrüfatı işçiləri üçün müvafiq kursların yaradılmasına nail olmalı, qış mövsümünədək tələb olunan işlərin həyata keçirilməsi üçün aidiyyəti orqanlarla birlikdə müvafiq tədbirlər görməlidir. Hərbi hissələr üçün yun corabların toxunması işi bu il də davam etdirilməlidir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi qış aylarında abonentlərə keyfiyyətli rabitə xidməti göstərilməsi üçün lazımi mal-material ehtiyatı yaratmalıdır. Xətt təsərrüfatının etibarlılığının daha da yüksəldilməsi, rabitə kabellərinin elektrik xətləri ilə təhlükəli kəsişmələrinin aradan qaldırılması üçün müvafiq tədbirlər görülməli, rayon mərkəzlərində və kəndlərdə abadlıq işləri aparılan zaman yeraltı rabitə qurğularının tikilməsi diqqətdə saxlanmalıdır.

Fövqəladə Hallar Nazirliyi yanğın təhlükəsizliyi tədbirlərini gücləndirməli, müəyyən olunmuş təhlükəsizlik normaları çərçivəsində elektrik enerjisi və təbii qazdan istifadə ilə bağlı əhali arasında maarifləndirmə tədbirlərini davam etdirməli, Təhsil Nazirliyi ilə birlikdə təhsil müəssisələrində müvafiq izahat işləri aparmalıdır. Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi standarta uyğun olmayan qızdırıcı elektrik və qaz cihazlarının, sənaye üsulu ilə hazırlanmayan digər texniki avadanlıqların muxtar respublikaya gətirilməsinə və istismarına yol verməməli, bu barədə istehlakçılar və sahibkarlar əvvəlcədən məlumatlandırılmalıdır. Ədliyyə Nazirliyi cəzaçəkmə müəssisələrinin fasiləsiz istiliklə təmin olunmasını, məhkumların isti geyim və ərzaqla təminatını diqqətdə saxlamalıdır”.

Ali Məclisin Sədri qeyd etmişdir ki, qış mövsümündə muxtar respublika ərazisindəki hərbi hissələrdə daxili intizam qaydalarına, şəxsi heyətin ərzaq məhsulları ilə təminatına xüsusi diqqət yetirilməli, tədarük olunan məhsulların keyfiyyəti diqqət mərkəzində saxlanmalıdır. Sərhəd zonalarındakı hərbi hissələrin yanacaqla təchizatı vaxtında başa çatdırılmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi qurumuş ağacların kəsilərək hərbi hissələrə verilməsini təmin etməli, payız mövsümündə yeni yaşıllıqların salınmasını davam etdirməlidir. Nazirlik qış aylarında muxtar respublikanın bitki və heyvanat aləminin qorunması üçün vaxtında müvafiq tədbirlər görməlidir. Aidiyyəti orqanlar ötən payız-qış mövsümündə buraxılan çatışmazlıqları ciddi təhlil etməklə həmin nöqsanlara bir daha yol verilməməsi üçün təsirli tədbirlər görməlidirlər.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti taxıl məhsullarına tələbatın il boyu dolğun şəkildə ödənilməsi və qiymətlərin sabit saxlanılması məqsədilə tələbata uyğun taxılın muxtar respublikaya gətirilməsi üçün müvafiq tədbirlər görməli, Dövlət Taxıl Fondunda buğda ehtiyatının yaradılmasını təmin etməlidir. İstilik sistemi olmayan təhsil, səhiyyə və mədəniyyət müəssisələrində payız-qış mövsümü üçün tələb olunan yanacağın bölgüsünü təsdiq etməli, zəruri yanacaq və avadanlıqların alınmasını təmin etməli, payız-qış mövsümünə hazırlıqla bağlı verilmiş tapşırıqların icrası barədə cari ilin oktyabr ayının 20-dək Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat verməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Kredit qoyuluşlarının sahələr üzrə strukturu genişlənir

***İqtisadiyyatın inkişaf etdirilməsi üçün kredit dəstəyinin mühüm əhəmiyyəti vardır. Bu elə bir mexanizmdir ki, onun vasitəsilə bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın bütün sahələrinin bərabər inkişaf səviyyəsi təmin olunur və son nəticədə, cəmiyyətin bütün təbəqələrinin maraqlarını ödəyə bilən bir iqtisadi sistem formalaşır. Məhz pul-kredit sisteminin köməyi ilə çoxşaxəli iqtisadiyyatın formalaşdırılması mümkün olur ki, burada da kredit qoyuluşlarının sahələr üzrə paylanılmasının əhəmiyyəti böyükdür.***

Kredit alıb müəyyən iş görmək, fərdi tələbatları ödəmək bir iqtisadi davranış və mədəniyyət kimi çoxdan məlumdur. Cəmiyyət inkişaf etdikcə iqtisadi həyatın müxtəlif sahələrində kredit münasibətləri genişlənməyə başlayır. Yetər ki, bu kreditlər vaxtında qaytarılsın. Kreditlər əsaslandırılmış istiqamətdə olduqda və onlar real iqtisadiyyatın tələblərinə uyğun istifadə olunduqda istənilən sahə üzrə öz müsbət səmərəsini verəcəkdir. Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf prioritetləri arasında kiçik və orta sahibkarlığın inkişafına verilən diqqət də kredit qoyuluşlarının sahələr üzrə şaxələndirilməsində özünü göstərir. Burada məqsəd, ilk növbədə, iqtisadi fəallığın regionun bütün bölgələrinə doğru yönəldilməsi, işgüzar təbəqənin maraqlarının təmin olunmasıdır. Muxtar respublikanın kommunikasiya imkanları və müasir inkişaf səviyyəsi onu da tələb edir ki, burada yerli imkanlar hesabına daha çox məhsul və xidmətlər istehsal olunsun və daha çox yerli əmək resursları buna cəlb edilsin. Ona görə də regional inkişafın prioritetləri arasında kredit qoyuluşlarının sahələr üzrə strukturunun təhlili maraq doğuran məsələlər arasında öz əhəmiyyətini qorumaqdadır.

Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata əsasən, muxtar respublika iqtisadiyyatına 94 milyon 400 min manatlıq kredit qoyuluşu həyata keçirilmişdir. Bu rəqəmi 2010-cu ilin göstəricisi olan 60 milyon 152 min manatlıq kredit qoyuluşu ilə müqayisə etdikdə hər il orta hesabla 13-20 faiz artımla müşayiət olunan müsbət dinamikanı görmək mümkündür. Muxtar respublika iqtisadiyyatının şaxələndirilməsi istiqamətində başda sənaye və kənd təsərrüfatı olmaqla, ticarət və xidmət sektorunda, inşaat və əmlak işlərində, nəqliyyat və rabitədə, ev təsərrüfatlarının genişləndirilməsində, ipoteka münasibətlərində və sair bu kimi sahələrdə kredit qoyuluşlarının bəhrələri görünməkdədir. Bu sahələr arasında təkcə kənd təsərrüfatı və emalı sahəsinə nəzər saldıqda, 2010-cu illə müqayisədə kredit qoyuluşlarının xüsusi çəkisində 33,4 faiz artım müşahidə olunmaqdadır. Eyni artımı ticarət və xidmət sahəsində (5,6 faizlik xüsusi çəkiyə qarşı 7,7 faiz), ev təsərrüfatlarının genişləndirilməsində (6,7 faizlik xüsusi çəkiyə qarşı 12,5 faiz) və ipoteka alımlarında (0,3 faizlik xüsusi çəkiyə qarşı 4,1 faiz) müşahidə etmək mümkündür. Muxtar respublika iqtisadiyyatının digər sahələri (sənaye, inşaat, nəqliyyat, rabitə və sair) ilə müqayisədə bu sahələrdə kredit qoyuluşlarının xüsusi çəkisinin artımı insanların müxtəlif xidmət və istehsal sahələrinə olan marağı ilə izah olunur. Belə sahələrdə kiçik biznes fürsətlərinin qiymətləndirilməsi və onların real sektorda öz yerini tuta bilməsi üçün göstərilən kredit dəstəyi öz nəticəsini verməkdədir.

Kreditlərin növləri çoxdur və hazırda müxtəlif məqsədlər üçün bir çox növdə kreditlər verilməkdədir. Naxçıvan Muxtar Respublikasında da istehsal və xidmət sahələrinin genişləndirilməsi, yeni iş yerlərinin açılması və ən mühümü əhali gəlirlərinin artırılması ilə paralel olaraq bu sahə ildən-ilə genişlənir. Sənaye, kənd təsərrüfatı və xidmət sahələrində kiçik biznesin genişləndirilməsi üçün verilən kreditlər və əhalinin istehlak tələbatının ödənilməsi üçün nəzərdə tutulan müxtəlif həcmli kreditlər hazırkı mərhələdə, yəni muxtar respublikada hərtərəfli inkişaf və intibah proseslərinin vüsət aldığı bir dövrdə daha vacibdir. Çünki əhalinin həyat səviyyəsinin daim yüksəldilməsi dövlətin əsas məqsədlərindəndir.

✍ **Əli CABBAROV**

## Su ehtiyatlarından səmərəli istifadə edilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir

***Muxtar respublikamızda mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsinə, su təminatının yüksəldilməsinə böyük əhəmiyyət verilir. Suya olan tələbatı ödəmədən xalq təsərrüfatı sahələrinin inkişafını və istehsalın iqtisadi səmərəliliyini təmin etmək mümkün deyildir. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivinə bu vəzifələri yerinə yetirmək üçün hərtərəfli şərait yaradılıb. Bu şəraitdən səmərəli istifadə etməyə səy göstərən su təsərrüfatı işçiləri 2014-cü ilin ilk 6 ayını bir sıra nailiyyətlərlə başa vurublar.***



Komitədən bildirdilər ki, qarşıya qoyulan başlıca məsələ muxtar respublikanın su ilə təminatına nail olmaqdır. Ona görə də mövcud su mənbələrindən səmərəli istifadə edilməsinə nail olmaq, bu qiymətli sərvəti torpaq mülkiyyətçilərinə vaxtında çatdırmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Kanal və arxların lildən təmizlənməsi, suvarma boru xətlərinin təmiri və yenilərinin çəkilməsi ilin ilk 6 ayında da davam etdirilib. Belə ki, 49,4 kilometr beton və torpaq kanallar, 38,5 kilometr kollektorlar, 270 kilometr ara arxları lildən təmizlənərək işlək vəziyyətə gətirilib. 1,2 kilometr kaptaj tikilib, 650 metr kaptaj təmir olunub. 17 kilometr uzunluğunda içməli su xətti çəkilib, 18,6 kilometr içməli su xəttində, 8,78 kilometr suvarma boru xəttində təmir işləri aparılıb. 40,12 kilometr yeni suvarma boru xətti, 0,6 kilometr yeni təzyiqli boru xətti çəkilib. Üç kilometr təzyiqli boru xətti təmir olunub. Çaylarda və selovlarda 43,9 kilometr sahilbərkitmə işləri aparılıb. Həmin tədbirlər rayonlarda da həyata keçirilib.

2014-cü təsərrüfat ilində muxtar respublikanın suvarma suyuna olan tələbatını ödəmək məqsədilə sututarlarda təmir işləri aparılıb, su anbarlarına 183 mln.$m^3$ su yığılıb. Bəhs olunan dövr ərzində su istifadəçilərinə 110,5 mln.$m^3$ suvarma suyu verilib. Bunun müqabilində təkrar suvarma da nəzərə alınmaqla, 91178 hektar torpaq sahəsi suvarılıb.

2014-cü ilin bəhs olunan dövründə 10 kəhrizdə təmir-bərpa işlərinə başlanılıb, 4 kəhrizdə bu işlər başa çatdırılıb. Altı kəhrizdə təmir-bərpa işləri davam etdirilir.

Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, rayon mərkəzlərində və ətraf kəndlərdə içməli su və kanalizasiya şəbəkələrinin yenidən qurulması istiqamətində də xeyli iş görülüb.

Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı tərəfindən maliyyələşdirilən “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” çərçivəsində Naxçıvan şəhərinin kanalizasiya və içməli su şəbəkəsi əsasən yekunlaşmaqdadır. Bu ilin ötən dövrü ərzində 10,2 kilometr şəhərdaxili kanalizasiya şəbəkəsi, 4,1 kilometr şəhərdaxili su şəbəkəsi çəkilib, 1211 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb. Həmin tədbirlər rayon mərkəzlərində və yaxın kəndlərdə də həyata keçirilib.

Kəngərli rayonunun torpaqlarını suvarma suyu ilə təmin etmək üçün Uzunoba gölündən diametri 720 millimetr olan boru ilə 2 ədəd suvarma xətti çəkilməklə nasos stansiyası tikilməkdədir. Nasos stansiyasından Sust sahələrinə suvarma suyunun verilməsi üçün 8 kilometr təzyiqli boru xətti çəkilib. Xəttin üzərindəki su hovuzunun tikintisi davam etdirilir.

Vayxır sol sahil kanalı altında Pircüvar düzündə 2000 hektar sahədə mexaniki suvarma şəbəkəsi tikilir.

Geniş həcmdə həyata keçirilmiş bütün meliorasiya və irriqasiya tədbirləri muxtar respublikamızda suya olan tələbatın ödənilməsinə xidmət edir. İlin ikinci yarısında həmin tədbirlər davam etdirilir.

✍ **Muxtar MƏMMƏDOV**

# Azərbaycan və Gürcüstan arasında əlaqələr daim genişlənir

## *Naxçıvan və Acarıstan muxtar respublikaları arasında qarşılıqlı faydalı münasibətlərin davamlı inkişafı bu əlaqələrin möhkəmlənməsinə xüsusi töhfə verir*

***Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında əlaqələrin bugünkü inkişafı iki ölkə arasında daim güclənən strateji tərəfdaşlıq münasibətlərinin yeni səviyyəyə yüksəlməsində xüsusi rol oynayır. Bu gün beynəlxalq aləmdə nüfuzu durmadan artan Azərbaycan Respublikası strateji müttəfiqləri ilə əlaqələrini genişləndirir, özünün milli maraqlarını ön planda tutaraq qarşılıqlı əməkdaşlığı müasir dövrün tələbləri çərçivəsində daim inkişaf etdirir, mehriban qonşuluq münasibətlərinin qurulmasına xüsusi önəm verir.***

Gürcüstan Azərbaycan üçün xüsusi əhəmiyyətə malik strateji tərəfdaşdır. Reallıq budur ki, bir sıra qlobal və regional məsələlərdə ölkələrimizin mövqeləri üst-üstə düşür, dövlət mənafelərimiz qarşılıqlı əlaqələrin inkişafını tələb edir. Gürcüstan ölkəmiz tərəfindən həyata keçirilən irimiqyaslı beynəlxalq iqtisadi layihələrin fəal iştirakçısıdır və özünü etibarlı tərəfdaş kimi göstərməkdədir. Bakı-Tbilisi-Ceyhan neft boru, Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəmərlərinin reallaşmasında və fəaliyyətində rəsmi Tbilisinin tutduğu mövqe də önəmli olubdur. Bu gün həmin qlobal əhəmiyyətə malik kəmərlər Gürcüstanın həm enerji təhlükəsizliyinin qorunmasında xüsusi rol oynayır, həm də tranzit xərclərdən ölkə büdcəsinə xeyli miqdarda vəsait daxil olur. Bu gün Azərbaycan, Türkiyə və Gürcüstanın birgə işbirliyi ilə reallaşdırılan və tarixi İpək Yolunun canlanmasına xidmət edəcək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi ölkələrimizi nəqliyyat dəhlizinə çevirməklə regional inkişafın davamlılığını təmin edəcəkdir. Yəni bu gün Azərbaycan ilə Gürcüstan arasında mövcud əlaqələr həm gürcü, həm də Azərbaycan xalqlarının maraqlarına tam cavab verir. Buna görə də ölkələrimizin prezidentləri tərəfindən müəyyən olunmuş siyasi kurs strateji tərəfdaşlıq istiqamətində davam etdirilir.

Respublikamızla Gürcüstan arasında inkişaf edən münasibətlərin Cənubi Qafqazın gələcək taleyinin müəyyənləşməsində xüsusi rol oynadığını bildirən Azərbaycan Prezidenti cənab İlham Əliyev hər iki ölkənin bir-birinə sıx dəstək verdiyini demişdir: ***"Bu gün Gürcüstan və Azərbaycan iki müstəqil dövlətdir və beynəlxalq təsisatlarda bir-birinə dəstək verir. Çox güclü siyasi münasibətlərimiz mövcuddur. Biz BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar daxilində birgə işləyirik və hər zaman bir-birimizə dəstək veririk. Ölkələrimizin ərazi bütövlüyü məsələsində biz hər zaman bir-birimizi dəstəkləyirik".***

Gürcüstan Prezidenti Georgi Marqvelaşvili isə bəyan etmişdir ki, Azərbaycan Gürcüstan üçün nəinki böyük layihələr, neft və qaz, eləcə də nəqliyyat sahəsində əməkdaşlıq, o cümlədən mədəniyyət, elm və fərdlər arasında münasibətlər baxımından olduqca vacibdir. O vurğulamışdır ki, biz daim siyasi sahədə tərəfdaşlığımızı həyata keçirir və inkişaf etdiririk. Bu, Gürcüstan üçün çox vacibdir, çünki bu tərəfdaşlıqla bir-birimizin cəmiyyətlərini və dövlətlərini zənginləşdiririk.

Müstəqil Azərbaycanla Gürcüstanın taleyində müəyyən bənzərliklər olduğu kimi, Naxçıvan və Acarıstan muxtar respublikaları da oxşar tale yaşayıblar. 1921-ci ildə imzalanan beynəlxalq Moskva və Qars müqavilələrinə əsasən, Naxçıvan Azərbaycanın, Acarıstan isə Gürcüstanın tərkibində qalıb. Daha sonra hər iki məkan muxtar respublika statusu qazanmaqla siyasi, hərbi təhlükəsizliklərini, o cümlədən gələcək sosial-iqtisadi inkişaflarını təmin ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu barədə demişdir: ***"Həm Azərbaycan, həm də gürcü xalqı oxşar siyasi talelər yaşamış, 1918-ci ildə Gürcüstanın paytaxtı Tbilisidə həm Gürcüstan, həm də Azərbaycan xalqları ilk demokratik respublikalarını elan etmişlər. Bundan sonra – 1921-ci ildə imzalanmış beynəlxalq Moskva və Qars müqavilələrinə əsasən, Gürcüstanın muxtar qurumu olan Acarıstan Muxtar Respublikası və Azərbaycanın muxtar qurumu olan Naxçıvan Muxtar Respublikası yaradılmışdır. Hazırda Naxçıvanla Batumi, Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında əlaqələrin bütün sahələr üzrə genişləndirilməsi üçün yaxşı əsaslar vardır".***

İnamla demək olar ki, bu gün Acarıstan Muxtar Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələr müasir dövrün çağırışlarına uyğun olaraq sürətlə inkişaf edir. Siyasi ekspertlərin ümumi fikri belədir ki, bu əlaqələrin möhkəmlənməsində məhz qədim yurdumuzun göstərdiyi təşəbbüslər həlledici rol oynayıb. Belə ki, 2012-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Gürcüstanın Acarıstan Muxtar Respublikasına 3 günlük işgüzar səfəri ikitərəfli əlaqələrin inkişafının başlanğıcı olmaqla yanaşı, münasibətlərin möhkəmlənməsinə böyük töhfə verib.

2012-ci ilin iyun ayında Acarıstan Hökumətinin Sədri Levan Varşalomidzenin rəhbərlik etdiyi Gürcüstanın Acarıstan Muxtar Respublikasının nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına işgüzar səfəri də yaddaqalan olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən görüş zamanı ikitərəfli əlaqələrin daha sürətlə inkişafı üçün bir çox sahələr üzrə müzakirələr aparılıb. Görüşdə Naxçıvanla Batumi, Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında əlaqələrin müxtəlif sahələr üzrə inkişaf perspektivləri müzakirə edilib, mədəniyyət, turizm, kütləvi informasiya vasitələri, təhsil sahəsində əlaqələrin inkişafı üçün imkanların olduğu vurğulanıb, gələcəkdə Naxçıvan-Batumi avtobus və təyyarə reyslərinin açılması barədə fikir mübadiləsi aparılıb, iş adamları arasında əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub, qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri nəzərdən keçirilib. Həmin görüşdə Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında "Azərbaycan Respublikasının Naxçıvan və Gürcüstanın Batumi şəhərləri arasında Qardaşlıq və Əməkdaşlığa dair Memorandum" imzalanıb. Bu müqavilə muxtar respublikalar arasındakı əlaqələrin ən yüksək səviyyəyə çatdığını sübut edən əsaslı sənəd kimi diqqəti cəlb edir.

Təsadüfi deyil ki, Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri Levan Varşalomidze muxtar respublikamıza işgüzar səfərindən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə ünvanladığı məktubda bir daha vurğulayıb ki, Naxçıvan və Batumi şəhərləri arasında imzalanmış Qardaşlıq və Qarşılıqlı Əməkdaşlıq haqqında Memorandum ölkələrimizin sıx qarşılıqlı münasibətlərinin dərinləşməsi üçün daha bir mühüm addım olacaqdır. Acarıstan Muxtar Respublikasında astma-bronxit xəstəliyindən əziyyət çəkən uşaqların bir qrupunun Batumidən Naxçıvana gələrək Duzdağ Fizioterapiya Mərkəzində yüksəksəviyyəli müalicəsini xatırladan Levan Varşalomidze onlara göstərilən diqqətə görə dərin təşəkkürünü bildirib.

Bu il iyulun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Gürcüstanın Acarıstan Hökuməti Sədrinin dəvəti ilə Batumiyə səfəri isə bir daha göstərdi ki, hər iki muxtar respublikanın qarşılıqlı əlaqələrinin bütün sahələr üzrə genişləndirilməsi üçün münbit şərait və real imkanlar mövcuddur. Batumi Beynəlxalq Hava Limanında Ali Məclisin Sədrini Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri Arçil Xabadzenin şəxsən qarşılaması isə Naxçıvana xüsusi münasibətin, dərin hörmətin növbəti təzahürü kimi qəbul edilir.

Acarıstan Muxtar Respublikası Hökumətinin Sədri ilə görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və hökuməti adından Acarıstan Muxtar Respublikasının əhalisinə, bütün gürcü xalqına ən xoş arzularını çatdıraraq demişdir: ***"Əsası 2012-ci ildə qoyulmuş əlaqələrimizin hazırkı səviyyəsi bizdə məmnunluq doğurur. 2012-ci ilin yanvar və iyun aylarında hər iki tərəfdən rəsmi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri olmuş, "Azərbaycan Respublikasının Naxçıvan və Gürcüstanın Batumi şəhərləri arasında Qardaşlıq və Əməkdaşlığa dair Memorandum" imzalanmışdır. Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında əlaqələr hər iki tərəfin səyləri ilə ilbəil genişlənir. Hazırda ticarət-iqtisadi, səhiyyə və təhsil sahəsində əlaqələrimiz əməkdaşlığımızın böyük potensiala malik olduğunu göstərir. İnkişaf edən əlaqələrin nəticəsi olaraq muxtar respublikanın sahibkarlıq subyektləri Acarıstan Muxtar Respublikasının iqtisadiyyatına birbaşa investisiya qoyuluşunda iştirak edirlər".***

Aparılan məqsədyönlü siyasət nəticəsində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının xeyli güclənməsi, maliyyə imkanlarının genişlənməsi nəticəsində naxçıvanlı iş adamları ticarət əlaqələrini genişləndirirlər. Bu baxımdan Naxçıvan və Batumi arasında iqtisadi əlaqələr yüksələn xətlə inkişaf edir, rəsmi nümayəndələrlə yanaşı, muxtar respublikamızdan iş adamları da zaman-zaman Batumiyə tanışlıq xarakterli səfərlər edirlər. 2012-ci ildə Batumi şəhərində "Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların sərgi-satış yarmarkası"nın təşkili də bu mənada əhəmiyyətli olub. Həmin yarmarkada Naxçıvan Muxtar Respublikasında istehsal olunan müxtəlif çeşidli məhsullar – "NAZ-Lifan" avtomobilləri, mebel avadanlıqları, tikinti sektorunda geniş istifadə olunan travertin, mərmər və daş, yerli sənətkarlar tərəfindən hazırlanmış misgərlik məmulatları, meyvə şirələri, içkilər, konservləşdirilmiş qida məhsulları, şirniyyatlar, mürəbbələr, bal, çay və tütün məmulatları nümayiş etdirilib. Yerli əhali, eyni zamanda Acarıstanın biznes dairələri sərgiyə çox böyük maraq göstəriblər. Təbii ki, bütün bunlar qarşılıqlı əlaqələrimizin inkişafına mühüm töhfələr verir.

Muxtar respublikalar arasında humanitar və elmi-texniki sahədə əməkdaşlıq yüksək səviyyədə inkişaf etməkdədir. Bu istiqamətdə həyata keçirilən və qarşılıqlı səfərlər yeni-yeni əməkdaşlıq imkanları yaradıb, iki ölkənin mədəni və elmi ictimaiyyətinin bir-birini tanımasına və birgə layihələrin həyata keçirilməsinə kömək edibdir. 2012-ci ildə Naxçıvan Dövlət Universiteti ilə Şota Rustaveli adına Batumi Dövlət Universiteti arasında təhsil, elm, mədəniyyət və idman sahələrində əməkdaşlığın həyata keçirilməsi və əlaqələrin inkişafına dair müqavilənin imzalanması bu sahədə mühüm nəticələrin əldə edilməsinə rəvac verib.

Həmin il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri fəxri doktoru olduğu Batumi Dövlət Universitetinin tələbələrinin istifadəsi üçün ali təhsil ocağına yeni kompüter dəstlərini, notbukları, elektron lövhələri və proyektorları hədiyyə etməsi, universitetdə Azərbaycan dilinin tədrisi üçün ayrıca auditoriya yaradılması Acarıstanın elmi ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanıb.

Hazırda Naxçıvan Dövlət Universiteti ilə Batumi Dövlət Universiteti arasında tələbə və müəllim mübadiləsi həyata keçirilir. Hər iki tərəfin elm və təhsil müəssisələrində keçirilən beynəlxalq elmi konfranslarda gürcü və azərbaycanlı alimlərin iştirak və çıxışları humanitar sahədə əlaqələri daha da genişləndirib. Batumi Dövlət Universitetində yaradılmış "Acarıstan-Naxçıvan Muxtar Respublikası" Dostluq auditoriyası dərinləşən dostluğumuzun və təhsil əlaqələrimizin gözəl nümunəsidir.

Bu il iyulun 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şota Rustaveli adına Batumi Dövlət Universitetinin professor-müəllim və tələbə kollektivi ilə görüşdə bu məsələyə toxunaraq demişdir: ***"Azərbaycan və Gürcüstan sıx əməkdaşlığa malikdir. Bu əməkdaşlığın ruhuna uyğun olaraq hər iki ölkənin muxtar qurumları arasında, Acarıstan Muxtar Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında da qardaşlıq və əməkdaşlıq əlaqələri genişlənməkdədir. Biz əlaqələrimizin genişlənməsində ziyalıların, elm və təhsil işçilərinin əməkdaşlığına mühüm əhəmiyyət veririk".***

Batumi Dövlət Universitetində keçirilən görüşdə Ali Məclisin Sədri universitetin müəllim və tələbələrinə kompüter dəstləri hədiyyə edib.

Acarıstanın elm xadimləri bu diqqəti yüksək qiymətləndiriblər. Batumi Dövlət Universitetinin prorektoru İrakli Baramidze universitetin fəxri doktoru – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə keçirilən görüşdən məmnunluğunu ifadə edib. İrakli Baramidze Batumi Dövlət Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında qurulan səmərəli elmi əməkdaşlığın, aparılan qarşılıqlı tələbə və elmi informasiya mübadiləsinin əhəmiyyətini vurğulayıb, ali təhsil ocaqları arasındakı əlaqələrin bundan sonra da davam etdirilməsinin vacibliyini bildirib. Batumi Dövlət Universitetinin müəllimləri və bu universitetin mübadilə əsasında Naxçıvan Dövlət Universitetində təhsil alan tələbələri ali təhsil ocaqları arasında əməkdaşlığın qurulmasına və inkişafına göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq ediblər.





***Dünyanın siyasi tarixinə nəzər yetirdikdə bir daha anlaşılır ki, dostluqlar, əməkdaşlıqlar dərin tarixi köklərə söykəndiyi zaman daha etibarlı, sıx və davamlı olur. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstan Respublikasının Acarıstan Muxtar Respublikası arasında qarşılıqlı əlaqələr də məhz dərin tarixi köklərə söykəndiyi üçün bu gün çox sürətlə inkişaf edir, möhkəmlənir. Hər iki tərəfin əməkdaşlığa verdiyi yüksək qiymət isə, əminliklə deməyə əsas verir ki, muxtar respublikalar arasındakı qarşılıqlı, faydalı münasibətlər bundan sonrakı mərhələdə daha sürətlə inkişaf edəcəkdir.***

**Rauf ƏLİYEV**

# Xalq teatrlarının muxtar respublika festivalı başa çatdı

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq keçirilən xalq teatrlarının muxtar respublika festivalı dünən başa çatıb.***

Festivala bu il iyul ayının 18-də start verilmişdi. Festivalın son günü Babək Rayon Xalq Teatrı böyük dramaturqumuz Cəfər Cabbarlının "Solğun çiçəklər" tamaşasını teatrsevərlərə təqdim edib. Qeyd edək ki, Babək Rayon Xalq Teatrı 2009-cu ildə yaradılsa da, muxtar respublikanın tanınmış kollektivlərindəndir. Teatrın son 5 ildə səhnəyə qoyduğu G.Fiqeyredonun "Ezop", B.Vahabzadənin "Yollara iz düşür", "İkinci səs", M.Əlizadənin "Şeyx Rəhmətullah", S.Axundovun "Məhəbbət nişanəsi" tamaşaları rəğbətlə qarşılanıb. Kollektiv "Ezop" tamaşası ilə muxtar respublikanın rayonlarında qastrol səfərlərində olub.

2012-ci ildə hazırlanan "Solğun çiçəklər" tamaşası kollektivin maraqlı səhnə əsərlərindəndir. Peşəkar teatrımız tərəfindən dəfələrlə səhnəyə qoyulan bu tamaşa xalq teatrının ifasında maraqlı səhnə təcəssümü ilə teatrsevərlər tərəfindən rəğbətlə qarşılandı. Səhnə əsərinin quruluşçu rejissoru Yusif Əliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Əli Səfərov, musiqi tərtibatçısı Elnur Rəhimovdur.

Tamaşanın əsas obrazlarından olan Bəhram rolunun ifaçısı Firdovsi Səfərov bu surətin tərəddüdlü, məhəbbəti nifrətə, nifrəti məhəbbətə çevrilən, bu iki bir-birinə zidd hiss arasında qalan xarakterini tamaşaçıya çatdıra bildi. Əsərin əvvəlində məhəbbəti üçün hər şeyə hazır olan Bəhram tamaşanın sonunda başqa bir obrazdır.



Bəhramın sevgilisi Sara rolunun ifaçısı Vüsalə İsmayılova da öz rolunu təbii və canlı təqdim edir. Məhəbbətin acı qurbanına çevrilən bu obraz tamaşaçıların yadında qalır.

"Solğun çiçəklər" tamaşasında Stella Babayevanın (Gülarə), Şölə Novruzbəylinin (Pəri), İsmayıl Qurbanovun (Əbdül) da təbii ifaları əsərin təsir gücünü tamaşaçıya çatdırmaq baxımından diqqəti cəlb edir. Bu səhnə əsəri göstərdi ki, xalq teatrlarımız dramatik tamaşaları da uğurla oynaya bilərlər.

Festivalın sonunda Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov çıxış edərək bildirdi ki, bu cür festivalların keçirilməsi teatra həvəs göstərən, yaradıcılıq qabiliyyəti olan insanların istedadının aşkara çıxarılmasında və formalaşmasında böyük əhəmiyyət daşıyır. Öz qüvvəsini və yaradıcılıq potensialını daha geniş tamaşaçı kütləsi qarşısında göstərmək baxımından da bu festival xalq teatrları üçün faydalı oldu. Həmin kollektivləri geniş ictimaiyyətə tanıtmaq baxımından da bu tədbirin əhəmiyyəti az deyil. Geniş ictimaiyyət qarşısında çıxış etmək üçün repertuar zənginliyinə diqqət yetirməyi vacib bilən nazir çıxışının sonunda xalq teatrlarına yaradıcılıq uğurları arzuladı və kollektivlərə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplomlarını təqdim etdi.

**Əli RZAYEV**

# Təbii bal necə hasil edilir?



*Uca Tanrı bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri cardaqlarda özünə pətək hör". ("Qurani-Kərim"in "Nəhl" surəsi, 68-ci ayə).*

Zərqanadlı bu kiçik canlılar ətraf mühitdən bal hasilatı üçün topladıqları çiçək tozu, nektar, şirə və biofəal maddələrin tədarükündən bir an belə, qalmırlar. İş mövsümündə ömrü 28-30 gün olan bal arıları 1 kiloqram bal üçün azı 20 milyonadək çiçəyə qonurlar. Bal, mum, barəmum, arı südü, arı zəhəri əksər xəstəliklərin əlacı olan arı məhsullarıdır.

Misirin Qahirə Universitetində belə qənaətə gəliblər ki, şəffaf materialdan arı pətəyi hazırlasınlar, arıların iş prinsipini kənardan müşahidə etsinlər. Qutu hazırlanır, arı ailəsi oraya köçürülür. Lakin 2-3 günün içərisində arılar şəffaf qutunu içəridən barəmumla elə suvayırlar ki, içərini görmək mümkün olmur. Sözün əsl mənasında, sirri-xuda olan arının iş prinsipi, balın kimyəvi tərkibi, müalicə təsiri dörd min ildir, öyrənilsə də, hələ bu sirli arılar tamamilə öyrənilməyib.

Ulu Naxçıvan torpağında arıçılığın tarixi çox qədimdir. Bu yerlər arıçılıq üçün çox əlverişlidir. Naxçıvanın zəngin bitki örtüyü arı qisminin zəngin ruzi-bərəkət mənbəyidir. Ta qədimdən bu yurdun dağ kəndlərində gərməşov adlı kəskin, spesifik iyli bir kol bitkisinin hər il pöhrələyən cavan şivlərindən arı səbəti toxunardı. Elə indinin özündə də bəzi dağ kəndlərində belə arı səbətlərinə rast gəlmək olur. İndiki taxta qutu arı pətəkləri olsa-olsa, 70-80 ilin nümunələridir.

Taxta qutularda saxlanılan arı ailələrini zərərverici və xəstəliklərdən qorumaq da asandır. Müxtəlif xəstəliklərə qarşı sahibkarlara hər cür dərman və bioprepatlar hazırda pulsuz verilir. Çünki bu maraqlı, faydalı, iqtisadi cəhətdən gəlirli sahəyə dövlət daim qayğı göstərir.

Arıçılıqda yem bazası başlıca şərtdir. Dənli, bostan-tərəvəz bitkiləri, yonca, xaşa, hər cür çiçək açan meyvə ağacları, bəzək kolları, xüsusən zəngin yatağa malik dərman bitkiləri plantasiyaları Naxçıvan torpağında hasilə gələn xalis balı, bəlkə də, digər bölgələrdən tamamilə fərqləndirir. Meşə ağaclarından palıd, vələs, fıstıq, yemişan, zirinc, doqquzdonu, cır alma, armud, alça, dovşanalması, yamaclarda quraqlığa görə sıx bitkisi olan gəvən kolları və digər nadir bitki növlərinin çiçəklərindən, tumurcuqlarından, gövdə çətirindən, yetkin meyvələrin şirələrindən çəkilən nektar və mürəkkəb biofəal maddələr balın tərkibini daha da zənginləşdirir. Odur ki, bal bir çox xəstəliyin təbii müalicəsində əvəzolunmaz vasitədir. Halal, zəhmətkeş arı məhsuluna xələl gətirməyən arıçılar Şahbuz rayonunda çoxdur: Yunis Quliyev, Əziz Vəliyev, Elşad Hümbətov, Hənifə Əjdərov, Elxan Həsənov, Vaqif Hüseynov, Vaqif Kərimov, Məhərrəm Məhərrəmov, İdris Məmmədov, Dilsuz Dünyamalıyev, Hüseyn Rzayev və başqaları, demək olar ki, indiyədək bazar qapısını tanımayıblar. Təmiz və xalis bal hasilatında o qədər böyük təcrübəyə malikdirlər ki, onların müştəriləri erkən yazdan bal sifarişi verərək avqustun ortalarında gəlib onların həyətlərindən alıb aparırlar.

Təəssüf ki, ömründə bircə ağac əkməyən, arı pətəyi nədir, tanımayan, arıçılıq haqqında təsəvvürü olmayan saxta bal "ustaları" həmin arıçılardan aldıqları 5-10 kiloqram balı yarmarkalar vaxtı qeydiyyatdan keçirib əldə arayışa malik olaraq düzəltdikləri saxta balı camaata od qiymətinə satırlar. 1-2 kiloqram təbii bala ümidi gələnlər beləcə aldadılır. Bu zərif məxluqlar "Qurani- Kərim"in "Nəhl" surəsindəki 68-ci ayədə deyildiyi kimi, insanlara şəfa nemətı hazırlamaqda Allahın əmrinə tabe olduqları halda, iri can-cüssəli saxta bal "ustaları" Allahdan qorxub çəkinmirlər. Elə bilirlər ki, qazancları həmişə olacaq. Ancaq itirdikləri qazandıqlarından çox olur.

Təbii balı saxta baldan necə ayırd etmək olar? Kibrit dənəsi 1-2 dəqiqə balda saxladıqdan sonra yanırsa, təbii baldır, yanmazsa, su ilə düzəldilən saxta baldır. Yaxud lavaş qurusunu bal camına salın, 5-6 dəqiqə gözləyin, islanmadı, quru qaldısa, deməli, həqiqi baldır, islandısa, süni şirədir. Bundan başqa, balı qabından qaşıqla qaldırdıqda şırnağı uzandıqca uzanıb saç tükü nazikliyində olsa da, şırnaq qırılmır, qırılanda da şırnaq sanki yuxarı dartılır. Ancaq saxta balda belə xüsusiyyət olmur. Əsl bal 2-3 aydan sonra xarlayıb ağarır. Buna balın bitməsi də deyirlər, yəni bal bir müddət sonra bitməlidir.

Bal Naxçıvan çuxurunda, əsasən, avqustun ortalarında hasilə gəlir. Şam bal, süzmə bal bir-birindən fərqlənir. Şam balda mum olduğundan təsir gücü daha yuxarıdır. Süzmə balı hazırlayarkən xüsusi alətlə çərçivədəki balın üzü sivrilir ki, balsüzən maşında sürətlə fırladılarkən bütün üsküklərin balı süzülə bilsin.

Ata-babadan lap elə dünyanın hər yerində balın bazar qiyməti inək yağı ilə eyni qiymətdə olub.

Balın misilsiz müalicəvi əhəmiyyəti var. Şəxsən tanıdığım və 110 il ömür sürmüş Məşədi Qəmbər baba cəmi iki gün xəstə yatdı. Oğlu deyirdi ki, atamın son bal payı camda qaldı. 100 il yaşayan arıçı Məşədi İsa baba da hər gün bal yeyərmiş; varlığa nə darlıq... 80-100 arı pətəyinə hər gün böyük zəhmətlə qulluq edən bu arıçılar ildə tonyarımdan çox bal süzərdilər. Onların əliaçıq olub qonum-qonşuya pay tutmaları indi də deyilir. Atalar sözüdü: "Verdin adındı, yığdın yadındı, yedinsə, dadındı".

**Qaşdar ƏLİYEV**

***Yay fəslində düzgün qidalanmaya xüsusilə diqqət edilməlidir. Çünki qidalanma vərdişlərindəki dəyişikliklər bir sıra fəsadlara yol aça bilər. Bu baxımdan yayda uşaqların düzgün qidalanmalarına valideynlər diqqət etməlidirlər. Əks təqdirdə, zəhərlənmə kimi xoşagəlməz hallar baş verə bilər. Ancaq sağlam və balanslı qida məhsulları qəbul etməklə yay aylarında bu cür sağlamlıq problemlərinin qarşısını almaq mümkündür. Məsələ ilə bağlı mütəxəssis rəyini öyrənmək üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının əməkdar həkimi İbrahim Ağayevə müraciət etdik.***

# Yay fəslində uşaqlar necə qidalanmalıdırlar?

O bildirdi ki, havaların istiləşməsi ilə əlaqədar olaraq uşaqlar arasında mədə-bağırsaq xəstəliklərinin intensivliyi artır. Buna əsas səbəblər kimi isti vaxtlarda xəstəliktörədən mikroorqanizmlərin aktivliyinin artmasını, ərzaq məhsullarının düzgün saxlanmaması nəticəsində çirklənməsini, uşaqların və valideynlərin sanitar-gigiyena qaydalarına riayət etməmələrini göstərmək olar. Eyni zamanda uşaqlarda mədə-bağırsaq sisteminin zəif olmasının, həzm fermentlərinin kifayət qədər olmamasının da xəstəliklərin əmələ gəlməsində böyük rolu vardır. Kiçikyaşlı uşaqlarda əmələ gələn mədə-bağırsaq xəstəlikləri, əsasən, sadə və toksiki dispepsiyalar şəklində olur. Sadə və toksiki dispepsiyalar qidalanmanın düzgün təşkil olunmamasından, yəni ananın uşağı, xüsusən isti vaxtlarda tez-tez və yaşa uyğun olmayan müxtəlif qidalarla qidalandırması nəticəsində baş verir. Bu zaman uşaqlarda kəskin narahatçılıq, aramsız ağlama, ishal, qusma əlamətləri olur. Bunun nəticəsində uşaqlarda susuzlaşma halı baş verir ki, bu da bütün həyativacib orqanlarda patoloji prosesin əmələ gəlməsinə səbəb olaraq bəzən çox ağır nəticələrə gətirib çıxarır. Kiçik yaşlarda, xüsusən südəmər dövrdə mədə-bağırsaq xəstəliklərinin əmələ gəlməməsi üçün, ilk növbədə, ana südü ilə qidalanma düzgün təşkil edilməlidir. Bunun üçün analar öz uşaqlarına mümkün qədər süd verməlidirlər. Müqəddəs kitabımız "Qurani-Kərim"də də körpələrə 2 il ərzində ana südü verilməsi buyurulur. Çünki ana südü uşaq üçün əvəzsiz qidadır. Onun tərkibindəki qida maddələri, zülallar, karbohidratlar, yağlar, mineral maddələr bir-birlərinə elə nisbətdədir ki, onlar uşaq orqanizmində tez sorulurlar. Ana südü həm də uşaqları müxtəlif xəstəliklərdən qoruyur. Eyni zamanda ana südü vasitəsilə bir çox genetik informasiyalar da uşaq orqanizminə keçir ki, bu da gələcəkdə şəxsiyyətin formalaşmasında böyük rol oynayır.

Onu da qeyd edim ki, ana südü az olduqda və ya heç olmadıqda analar səhv olaraq müxtəlif heyvan südlərindən istifadə edirlər. Bu da uşaqda mədə-bağırsaq pozğunluğuna səbəb olur. Yaxşı olar ki, belə vaxtlarda qidalanma həkim məsləhəti ilə aparılsın. Uşaq yeməkləri verilərkən sanitar-gigiyenik qaydalara, onların saxlanmasına diqqət etmək lazımdır. Bu vaxt düyü həlimi və süzmə qatıq qarışığından istifadə etmək olar. 1-2 yaşdan sonra yay vaxtı uşaqlar üçün sıyıqlar, yaxşı olar ki, süddə yox, suda bişirilsin. Kartof, tərəvəz pürelərindən, yağsız supdan da istifadə etmək olar. Uşaqlara təbii şirələr və artıq miqdarda maye verilməlidir.

Müsahibim onu da vurğuladı ki, nisbətən böyükyaşlı uşaqlarda yay aylarında mədə-bağırsaq xəstəliklərinə rast gəlinmir. Bunun əsas səbəbi kimi səhiyyə maarifinin əhali arasında tez-tez aparılması, uşaqlara vaxtlıvaxtında qoruyucu peyvəndlərin vurulması və sairəni göstərmək olar.

Lakin böyükyaşlı uşaqlarda yay aylarında qastroenteritlər, qida zəhərlənmələri kimi hallara təsadüf edilir.

Hər bir ana uşağın qəbul etdiyi qidalara daha məsuliyyətlə yanaşmalı, onun təmizliyinə diqqət yetirməlidir. Əksər hallarda uşaqlarda mədə-bağırsaq xəstəliklərinin yaranması müşahidə oluna bilər. Belə hallarla qarşılaşdıqda həkimə qədər uşaqlara ilk yardımlar edilməlidir. Belə ki, uşağa verilən bütün qidalar dayandırılmalı, ona dərhal çobanyastığı dəmləməsi və limonlu çay verilməlidir. Əgər hərarət yüksəkdirsə, uşağa ılıq vanna edib, parasetamol vermək və uşaq həkiminə müraciət etmək lazımdır.

Yay ayları eyni zamanda uşaqların enerji yığmaları üçün hər cür meyvə- tərəvəzlə zəngin, Günəş şüaları ilə bol aylardır. Əziz analar, uşaqlarınızı yay aylarında bu cür xəstəliklərdən qorumaq üçün onların düzgün qidalanmalarına, şəxsi gigiyena qaydalarına riayət olunmasına diqqət etməlisiniz. Gələcəyimiz olan uşaqlara diqqət və qayğı hamımızın borcudur.

**Sona MİRZƏYEVA**

# Kitab sərgisi təşkil olunub

"Kitab bilik mənbəyidir. Bu mənbədən daim istifadə etmək insanın biliyini artırmaqla bərabər, həm də onun dünyagörüşünə təsir edir. Buna görə də uşaq və yeniyetmələrdə kiçik yaşlardan mütaliə mədəniyyətinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Naxçıvan şəhərində mütəmadi olaraq keçirilən kitab sərgiləri də bu amala xidmət edir". Bu fikirlər dünən Naxçıvan şəhərindəki Dədə Qorqud meydanında təşkil edilmiş kitab sərgisində Adil Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanasının direktoru Kamal Axundov tərəfindən səsləndirilib. Kitabxana direktorunun bildirdiyinə görə, sərgidə xalqımızın ümummilli lideri Heydər Əliyevə və Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş 250-yə yaxın kitab nümayiş etdirilib.

Sərgidə şəhər sakinləri və məktəblilər iştirak ediblər.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 666